“Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxsin 14.09.2023-cü il tarixli 3-21-1-1/3-1-F-31/2023 nömrəli Əmri ilə təsdiq edilmişdir.

**“Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxsi (AzAK) tərəfindən akkreditasiya edilmiş sınaq və kalibrləmə laboratoriyalarının AzAK-ın idarəetmə sisteminin beynəlxalq tələblərə o cümlədən, ISO/IEC 17011 – “Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər” standartına uyğunlaşdırılması ilə əlaqədar olaraq təsdiq etdiyi yeni prosedur, qayda və təlimatlara dair**

# KEÇİD SİYASƏTİ

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki AzAK-ın Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına (bundan sonra - ILAC) tam həqiqi üzv kimi qəbul olunması nəzərdə tutulmuşdur.

AzAK-ın İLAC-a tam hüquqlu üzv olması və ILAC-la Qarşılıqlı Tanınma Sazişini imzalaması üçün ISO/IEC 17011 - “Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər” beynəlxalq standartının bütün tələblərini yerinə yetirməsi tələb olunur.

Bu məqsədlə ILAC-ın tələbləri, eləcə də bir sıra qabaqcıl ölkələrin müvafiq sahədəki təcrübəsi öyrənilmiş, AzAK-ın idarəetmə sisteminin sənədləri, o cümlədən, AzAK P005 “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru” və akkreditasiya sxemi ISO/IEC 17011 – “Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər” beynəlxalq standartının tələblərinə uyğunlaşdırılmış, 2023-cü ilin 1 sentyabr tarixindən tətbiqinə başlanılmış və AzAK-ın rəsmi internet səhifəsində (www.accreditation.gov.az) yerləşdirilmişdir.

İlkin mərhələdə AzAK tərəfindən akkreditasiya edilmiş Sınaq və kalibrləmə laboratoriyalarının (laboratoriyalar) AzAK-ın yeni prosedur, qayda və təlimatlara uyğunlaşdırılması ilə əlaqədar tam keçidini təmin etmək məqsədilə aşağıdakılar təmin edilməlidir:

1. AzAK tərəfindən akkreditasiya edilmiş laboratoriyalar mövcud statuslarının davamlılığının saxlanması üçün 30.06.2024-cü il tarixinə qədər AzAK-ın yeni prosedur, qayda və təlimatlarına, habelə ILAC-ın tələblərinə tam uyğunluqlarını təmin etməlidirlər;
2. 01.09.2023-cü ilə qədər akkreditasiyadan keçmiş laboratoriyalar AzAK-ın yeni prosedur, qayda və təlimatlarına, ILAC-ın tələblərinə tam uyğunluqlarını təmin etmək üçün keçid planı hazırlayaraq 20.10.2023-cü il tarixindən gec olmayaraq AzAK-a təqdim etməlidirlər (nümunəvi keçid planı əlavə edilir);
3. AzAK tərəfindən 30 iyun 2024-cü ilə qədər həyata keçiriləcək illik qiymətləndirmələr zamanı laboratoriyalar tərəfindən hazırlanmış keçid planının icrası vəziyyəti qiymətləndiriləcək və müvafiq tövsiyyələr veriləcəkdir;

4. Laboratoriyalar akkreditasiya statusunun davamlılığının saxlanması üçün keçid planının icrasının nəticələrinə dair hesabatı 30.06.2024-cü il tarixinədək AzAK-a təqdim etməlidirlər;

5. AzAK tərəfindən 1 iyul 2024-cü ildən sonrakı tarixlərdə həyata keçiriləcək illik qiymətləndirmələr zamanı laboratoriyaların AzAK-ın yeni prosedur, qayda və təlimatlara, habelə ILAC-ın tələblərinə uyğunluqlarının təmin edilmədiyi aşkar edilərsə akkreditasiya attestatlarının qüvvədə olma müddətinin dayandırılması ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görüləcəkdir;

6. 1 sentyabr 2023-cü ilin tarixindən etibarən AzAK-ın yeni prosedur, qayda və təlimatlarına, habelə ILAC-ın tələblərinə uyğun olaraq hazırlanmamış akkreditasiya müraciətlərinə baxılmayacaqdır.

Nümunəvi keçid planı:

| **Fəaliyyətlər** | **Fəaliyyətlərin tam icrası tarixi** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **11/23** | **12/23** | **01/24** | **02/24** | **03/24** | **04/24** | **05/24** | **06/24** |
| AzAK S01 Ölçmə nəticələrinin metroloji izlənilməsinə dair siyasət sənədi | | | | | | | | |
| AzAK S03 Kalibrləmədə ölçmə qeyri-müəyyənliyinə dair siyasət sənədi | | | | | | | | |
| AzAK P011 Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi | | | | | | | | |
| AzAK P014 Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadəyə dair prosedur | | | | | | | | |
| AzAK P016 Sınaq hesabatları və kalibrləmə sertifikatlarında akkreditasiya nişanından istifadə | | | | | | | | |
| AzAK P005 Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru | | | | | | | | |
| AzAK T005-03 Kalibrləmə laboratoriyalarının akkreditasiya sahəsinin təqdimat qaydaları üçün təlimat | | | | | | | | |
| Keçid planının icrasının nəticələrinə dair hesabatın AzAK-a təqdim edilməsi | | | | | | | | |

Əlavə məlumat əldə etmək üçün laboratoriyalar AZAK-a müraciət edə bilər.

**Ünvan: Bakı şəhəri, Elçin İsaqzadə qəsəbəsi, 7-ci köndələn**
**İnternet səhifəsi: www.accreditation.gov.az**
**Telefon: +994 12 565 35 50/51/52**
**Elektron ünvan: azak@accreditation.gov.az**